# Dərələyəzli ustad aşıq





Xalq yaradıcılığının ən zəngin və qüdrətli qollarından sayılan aşıq sənətinin ənənələri, çağdaş durumu və perspektivləri dərindən araşdırılır və geniş tədqiqat işləri aparılır. Aşıq şeiri milli poeziyamızın ana qaynağıdır. Aşıq sənəti xalq danışıq dilinə məxsus axarlı-baxarlı dinamikası, koloriti, ürəyəyatımlı deyim tərzi, aydın, şəffaf və təbii obrazları ilə unikal bir özünəməxsusluq kəsb edir.

Ozan-aşıq sənəti dərin tarixli köklərə malik olan möhtəşəm bir mədəniyyətdir. Dədə Qorqud oğuznamələrindən qaynaqlanan aşıq sənəti milli mənəvi varlığımızın ədəbi-estetik fikrimizin, musiqi mədəniyyətimizin, folklorumuzun formalaşması və inkişafında getdikcə zənginləşərək əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə daşınılmasında müstəsna tarixi rol oynamışdır.

Göyçəli Aşıq Ələsgər hansı haqqa sahibdirsə, Qərbi Azərbaycanın Dərələyəz aşıq mühitində Aşıq Cəlil həmin mövqeyin sahibidir. Türk dünyası aşıq sənətinin yaranmasında, formalaşmasında və inkişaf etdirilməsində Aşıq Cəlilin xidmətləri danılmazdır.

Bu günlərdə Milli Elmlər Akademiyasında dərələyəzli Aşıq Cəlillə bağlı geniş tədbir keçirildi və ustad aşığın ömür yoluna və yaradıcılığına həsr olunmuş və tədqiqatçı Nazir Əhmədli tərəfindən qələmə alınmış "Dərələyəzli Aşıq Cəlil" kitabının təqdimat mərasimi oldu.

Tədbirdə akademik, Folklor İnstitutunun direktoru Muxtar İmanov çıxış edərək vurğuladı ki, "Cəlili" aşıq havası ilə öz adını Azərbaycan aşıq sənətinin tarixinə əbədi olaraq yazmış Dərələyəz mahalının Sallı kəndində göz açan Aşıq Cəlilin həyatı və yaradıcılığı müəyyən səbəblərdən son 30 ildə araşdırılmışdır. El sənətkarı Aşıq Cəlil 12 saz havasının müəllifi olmuşdur.

Göyçəli Aşıq Əsədin dediyinə görə o, gənc yaşlarında bir dəfə təsadüfən Aşıq Cəlillə rastlaşıb. Cəlilin gözəl və şaqraq səsinə, məclis aparmaq bacarığına heyran olub, Aşıq Cəlil bir el məclisində Aşıq Əsədlə oxumalı olub. Aşıq Cəlilin gözəl ifaçılığı, sazda çaldığı el havaları məclis iştirakçılarını ovsunlayıb.

Aşıq Cəlil qəlbinin hökmü ilə günlərin bir günündə telli sazı əlində Ağkilsə kəndinə üz tutur soraqlaşa-soraqlaşa Dədə Ələsgərin evini tapır. Tanışlıq verir, öz məharətini göstərir, Cəlilin ifa etdiyi havaların birinə Aşıq Ələsgər "Cəlili" havası adını verir və sidq ürəklə bildirir ki, bu hava bundan sonra sənin adına qalacaqdır.

Aşıq Ələsgər sazını çıxarıb məclisdə bir neçə təcnis ifa edir. Elə o gündən Ələsgərlə Dərələyəzli Aşıq Cəlilin dostluğu başlayır. Bu dostluğu hər iki aşıq ömürlərinin son günlərinə qədər qoruyub saxlayırlar.

Aşıq Cəlil 1918-ci il erməni-müsəlman davasından sonra Şərur royununun Düzə kəndində yaşamış və yaradıcılığını davam etdirmişdir. Aşıq Cəlilin ilk ustadı Cənubi Azərbaycandan olan Aşıq Abbas olmuşdur.

Aşıq Cəlil gözəl ifaçılığı ilə, sazda çaldığı havalarla həmişə məclis iştirakçılarını ovsunlayarmış.

Mahir improvizator sənətkar olan Dərələyəzli Aşıq Cəlilin ömrünün son günləri məşəqqətli keçmişdir. Aşıq nurani yaşında erməni zülmündən qaçaraq Naxçıvana pənah gətirmiş, ömrünün son illərində burada yaşayıb yaratmışdır.

Tədbirdə daha sonra çıxış üçün söz professor, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlıya verildi. O, qeyd etdi ki, kökü yüzilliklərin dərinliklərindən gələn, zəngin musiqi və söz repertuarlarına, teatral keyfiyyətlərə malik olan ozan-aşıq sənəti dilimizin, ruhumuzun qorunmasında milli istiqlal, milli dövlətçilik düşüncəsinin daşınmasında misilsiz rol oynayır. Aşıq sənətinin qorunub saxlanılmasında Aşıq Cəlilin böyük xidmətləri olub: Qəlbi söz xəzinəsi idi; sənətinin, sədəfli sazın vurğunu idi. Öz şəyirdlərinə həmişə saz ömrü, söz ömrü, Dədə-Qorqud xeyir-duası arzulayırmış.

Tədbirdə nəfis tərtibatda hazırlanmış və Aşıq Cəlilin anadan olmasının 150 illiyinə həsr olunmuş "Dərələyəzli ustad aşıq Cəlil" kitabının müəllifi tədqiqatçı Nazir Əhmədlinin çıxışı hərarətlə qarşılandı. "Cəlili" aşıq havası ilə öz adını Azərbaycan aşıq sənətinə əbədi olaraq yazmış Aşıq Cəlilin həyatı və yaradıcılığı haqqında müfəssəl məlumat verdi.

Tədbirdə filologiya üzrə fəlsəfə doktoru, Aşıq Cəlillə bağlı çox səmərəli tədqiqat işləri aparan Əli Şamil, Dərələyəz İctimai Birliyinin sədr müavini Sevindik Hüseynov, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli, Kamil Dərələyəzli və başqaları çıxış etdilər.

Təqdimat mərasimində aşıq Altayın ifa etdiyi mahnılar tədbirə qatılanlarda xoş ovqat yaratdı.

**Qədir ASLAN,**
**"Respublika".**